AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

CƏMİL ŞAMİL OĞLU QULİYEV

# QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASININ SƏNƏDLƏRİ ŞİMALİ AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALINI ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏ KİMİ

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

**Tarix üzrə fəlsəfə doktoru**
**alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**Bakı – 2014**

**Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **A.C.İsgəndərov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **İ.M.Hüseynova**
tarix üzrə fəlsəfə doktoru **V.U.Umudlu**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013–cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının 22 noyabr 2014–cü il tarixli iclasında saat 11–də keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı şəhəri, akademik Zahid Xəlilov küçəsi, 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 22 oktyabr 2014–cü ildə göndərilmişdir.

**D.02.161 Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor:** **S.Y.Süleymanova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** 1991–ci ilin 18 oktyabrında müstəqillik haqqında konstitusiya aktının qəbul edilməsindən sonra Azərbaycan Respublikasının dərin köklərə malik olan dövlətçilik tarixinin tədqiqi, qonşu dövlətlərlə münasibətlərinin əhəmiyyəti, həmin münasibətlər tarixinin araşdırılması olduqca aktual bir mövzuya çevrilmişdir. Araşdırılması vacib olan məsələlər sırasında Azərbaycan xanlıqları xüsusi qeyd olunmalıdır. Məlum olduğu kimi, XVIII əsrin II yarısı Azərbaycanın dövlətçilik tarixində mühüm bir dövrü təşkil edir. Belə ki, XVIII əsrin ortalarında meydana gəlmiş Azərbaycan dövlətiçıliyi tarix səhnəsinə vahid şəkildə deyil, ayrı–ayrı feodal qurumları–xanlıqlar şəklində daxil olsa da, müəyyən dövr üçün dövlətçilik anlayışını qoruyub saxlamışdır. Düzdür, XVIII əsrin sonlarında Azərbaycan xanlıqları özlərinin siyasi varlıqlarını qorumaq üçün həlli getdikcə çətin olan bir mübarizə meydanına atılmağa məcbur oldular. Bir tərəfdən daxili siyasi çəkişmələr, digər tərəfdən isə yadelli hücumları Azərbaycan xanlıqlarının siyasi mövcudluğu üçün ciddi təhlükəyə çevrilmişdi. Öz varlıqlarını qorumaq üçün daim mübarizə aparan Azərbaycan xanlıqları, siyasi müstəqilliklərini itirməmək naminə qonşu xanlıqlar və dövlətlərlə müəyyən münasibətlərə girmək məcburiyyətində qalmışlar. Lakin mürəkkəb və ziddiyyətli zamanın gedişi heç də dövlətçilk tariximiz üçün asan başa gəlmədi. 1813–cü il Gülüstan və 1828–ci il Türkmənçay müqavilələri ilə tarixi Azərbaycan torpaqları Qacarlar İranı və çar Rusiyası arasında ikiyə parçalandı. Qeyd etmək lazımdır ki, Qafqaz Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra, Tiflis şəhəri Cənubi Qafqazın inzibati və mədəni mərkəzi kimi fəaliyyət göstərməyə başlamışdır. Qafqazda yaşayan yüzlərlə xalqı idarə etmək üçün çar Rusiyası orada bir sıra inzibati təşkilat, idarə və cəmiyyətlər açmış, müxtəlif elmi və mədəni müəssisələr təşkil etmişdir. XIX əsrin əvvəllərindən etibarən, həmin idarə və təşkilatlar müxtəlif kitab, məcmuə, jurnal və qəzetlər çap etməyə başlamışdır. Bunların arasında "Tiflis quberniyasının təsviri üçün məcmuə", "Qafqazın təqvimi", "Qafqaz dağlıları haqqında məlumat toplusu", "Kənd təsərrüfatı üzrə Qafqaz İmperator Cəmiyyətinin məcmuəsi" və "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" və s. göstərmək olar. Çoxhəcmliliyi və elmi əhəmiyyəti ilə fərqlənən Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı 12 cildlik sənədlər toplusu məşhur Qafqazşünas alim A.Berjenin redaktorluğu ilə hazırlanaraq 1866-cı ildən etibarən Tiflisdə çap olunmuşdur. Bu toplularda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın Baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriptlər və s.) yanaşı,

statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir-çıxar sənədləri və s.) da mövcuddur. Qafqazda yaşayan digər xalqlarla yanaşı, Azərbaycan tarixinə dair mühüm mənbə sayılan bu toplularda Azərbaycan xanlıqlarının ictimai-iqtisadi, siyasi həyatı və s. öz əksini tapmışdır. Problemin aktuallığını şərtləndirən amillərdən biri qədim və zəngin dövlətçilik tarixinə malik Azərbaycanın xanlıqlar dövrünün ilk dəfə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları əsasında öyrənilməsidir. Məlumdur ki, Sovet dövründə Azərbaycan tarixinin öyrənilməsində daha çox təhriflərə məruz qalan başlıca problemlərdən biri də xanlıqlar dövrü tarixinin tədqiqidir. Xüsusilə sovet tarixşünaslığında belə bir ideoloji konsepsiya hakim idi ki, Azərbaycan xanlıqlarının qonşu dövlətlərlə münasibətləri birtərəfli olmuş, çar hökumətinə münasibəti "könüllülük" prinsipinə əsaslanmış, qonşu dövlətlərlə isə münasibətləri olmamışdır. Belə yanlış münasibət isə həmin Azərbaycan xanlıqlarının ictimai-iqtisadi, siyasi vəziyyəti, eləcə də öz müstəqilliklərini qoruyub saxlamaq uğrunda mübarizəsi haqqında səhv nəticələrə gətirib çıxarmışdır. Probelmin aktuallığını şərtləndirən digər amil isə tarixi həqiqətlərə söykənməklə, milli dövlətçilik tariximizin ayrı-ayrı inkişaf mərhələlərində mütərəqqi, təqdirəlayiq nə varsa, onların hamısından ətraflı dərəcədə faydalanmaqla tariximizin öyrənilməsi sahəsində mövcud olan boşluğu doldurmaq, Azərbaycanın dövlətçilik tarixinə münasibətin yeni baxışlarla təhlil edilərək, elmi nəticələr əldə edilməsidir. Məsələni bir qədər də asanlaşdırası olsaq, bəhs olunan dövrlə bağlı mühüm mənbə olan Qafqaz Arxeoqrafiya Komissiyasının aktları əsasında Azərbaycan xanlıqlarının yaranması, xanlıqların sosial-iqtisadi vəziyyəti, I–II Rusiya-İran müharibələrinin Azərbaycan üçün nəticələri, Azərbaycan ərazilərinə ermənilərin köçürülməsi, yerli sakinlərin öz yurd–yuvalarından didərgin salınması və s. bu kimi məsələlərə hansı kontekstdən yanaşmasını aydınlaşdırmaqdır. "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün mühüm tarixi mənbədir. Şimali Azərbaycan xanlıqlarının ictimai-iqtisadi və siyasi həyatının və ümumilikdə Azərbaycan tarixinin öyrənilməsində "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları"-nın mövcud dissertasiya üçün tədqiqat obyekti seçilməsi də təsadüfi deyildir. Əvvəla XVIII əsrin ortalarında meydana gəlmiş Azərbaycan xanlıqları dövlətçilik ənənələrinin bərpası baxımından mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən isə XVIII əsrin II yarısı–XIX əsrin əvvəllərini əhatə edən mürəkkəb tarixi dövrün tam və obyektiv mənzərəsini Azərbaycan xanlıqlarının sosial-iqtisadi və siyasi həyatını öyrənmədən yaratmaq mümkün deyil. XX əsrin sonlarında torpaqlarımızın 20%-ni, o cümlədən Qarabağın böyük hissəsini işğal etmiş

ermənilərin bu ərazilərin tarixən onlara məxsus olması haqqında qeyri-obyektiv iddialarının əsassızlığını sübut etmək, onların beynəlxalq ictimai fikir və siyasi iradələri çaşdırmağa yönəlmiş cəhdlərini puça çıxarmaq üçün Azərbaycan tarixini tutarlı qaynaqlar, o cümlədən "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" əsasında obyektiv və gerçəkliyə uyğun şəkildə öyrənilməsi, şübhəsiz ki, çox aktualdır. Göründüyü kimi, XVIII əsrin II yarısı Azərbaycan xanlıqlarının yaranması, xanlıqların sosial–iqtisadi həyatı, qonşu dövlətlərlə münasibətlərinin tədqiqi bu gün də öz aktuallığı ilə qarşımızda dayanan ciddi problemlərdəndir. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları əsasında Şimali Azərbaycan xanlıqlarının ictimai-iqtisadi və siyasi həyatı, Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsi, onların müstəqilliyinə son qoyulması, azərbaycanlı əhaliyə qarşı həyata keçirilən milli, dini, siyasi bərabərsizliyin indiyə kimi kompleks şəkildə araşdırılmaması bu problemin aktuallığını daha da zəruri edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Problem bilavasitə Azərbaycanın xanlıqlar dövrünü–XVIII əsrin II yarısı, XIX əsrin I rübünü əhatə edir. Belə ki, Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları əsasında Şimali Azərbaycan xanlıqlarının sosial-iqtisadi, siyasi həyatını şərti olaraq bir neçə mərhələyə bölmək olar:

– Şimali Azərbaycan xanlıqlarının yaranması ərəfəsində Azərbaycanda siyasi vəziyyət;
– XVIII əsrin II yarısı–XIX əsrin I rübündə Azərbaycan xanlıqlarının sosial-iqtisadi quruluşunun öyrənilməsi;
– I–II Rusiya–İran müharibələrinin gedişi, Azərbaycan xanlıqlarının öz müstəqilliklərini qoruyub saxlamaq uğrunda mübarizəsi;
– Şimali Azərbaycan xanlıqlarının müstəqilliyinə son qoyulması, çar Rusiyası tərəfindən yerli əhaliyə qarşı həyata keçirilən milli, dini, siyasi bərabərsizliyin öyrənilməsi.

**Problemin öyrənilmə dərəcəsi.** Qeyd etmək lazımdır ki, Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları əsasında tədqiq olunan problem vətən tarixşünaslığında indiyədək öyrənilməmişdir. Bununla yanaşı Şimali Azərbaycan xanlıqlarının yaranması, sosial-iqtisadi və siyasi həyatı ayrı-ayrı müəlliflərin əsərlərində istər Sovetlər dönəmindən əvvəl, istər Sovet dövründə, istərsə də müstəqillik illərində geniş şəkildə araşdırılmış, sanballı elmi axtarışlar aparılmışdır. Mövzunun tarixşünaslığının səciyyəvi cəhətlərindən biri də problemə tarixilik baxımından Azərbaycan tarixi ilə bağlı yazılmış ayrı-ayrı ümumiləşdirilmiş əsərlərdə də işıqlandırılmasıdır. Bu tədqiqat əsərləri içərisində sovetlər dönəmindən qabaqkı qafqazşünaslar çarizmin Cənubi Qafqazdakı işğalçılıq siyasətini hər vasitə ilə "gizlədir",

işğal ərəfəsində Azərbaycan xanlıqlarında mövcud olan sosial-iqtisadi quruluşu əslində olduğundan daha bəsit göstərməyə çalışırdılar. Belə tədqiqatçılar içərisində M.N.Kuçayev, V.N.İvanenko, S.L.Aveliani və S.Esadze çarizmin aqrar siyasətinin başlıca məsələlərindən biri olan torpaq məsələsinə qeyri–elmi konsepsiyadan yanaşaraq, burada xanlıqlar dövründə torpaq üzərində nəinki mülkiyyətçilik, heç sahiblik hüququnu da qəbul etmirdilər. [1] Məsələnin belə qoyuluşu isə qabaqcadan xanlıqlardakı real ictimai–iqtisadi münasibətlərin mahiyyətini təhrif edərək müəyyən praktiki məqsədə-yerli feodalların hüquqlarını sıxışdıran xəttə-fodalların çarizmə düşmən olan hissəsinin torpaqlarının kütləvi surətdə müsadirə edilməsi, həmin torpaqların feodalların sədaqətli olan hissəsinə “idarəçilik” adı ilə paylanması tədbirlərinə haqq qazandırmağa xidmət edirdi. Onlar yerli feodalları qəsdən dövlət məmuru və kəndlərin yalnız “idarəedicisi” sayırdılar. Bu baxımdan təkcə N.F.Dubrovin bəhs olunan məsələyə nisbətən düzgün yanaşaraq xanlıqlar dövründə feodalların şərtsiz və şərti torpaq sahibliyi hüququnu obyektiv şərh etməyə çalışmışdır. [2] Bəhs olunan problemin bu və ya digər tərəflərinə, xüsusilə işğaldan əvvəl və sonrakı dövrdə yerli feodalların sosial-iqtisadi və silki hüquqları ilə bağlı bir sıra məsələləri A.Bakıxanovun “Gülüstani–İrəm” əsərində öz əksini tapmışdır.[3] XIX əsr Azərbaycanın xronist tarixçilərinin əsərlərində [4] də öyrənilən problemin bəzi tərəfləri, xüsusilə xanlıqlar dövrünün siyasi mənzərəsi, xanlıqların çar Rusiyası tərəfindən işğalı, aqrar quruluşu və s. kimi məsələlərə rast gəlmək mümkündür. Bəhs olunan dövr və araşdırılan mövzunun bu və ya digər tərəfləri İ.P.Petruşevskinin əsərlərində xüsusilə diqqəti cəlb edir. İ.P.Petruşevski aqrar münasibətlərə dair monoqrafiyasında Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində mövcud aqrar quruluşun əsas institutlarına aydınlıq gətirmişdir.[5] Problemin bu və ya digər məsələsinin ayrı-ayrı tərəfləri araşdırılarkən işğal ərəfəsində Azərbaycan xanlıqlarında

---

[1] М.Н.Кучаев. Феодализм и закрепощение в Закавказье // Русский вестник //, 1893, стр. 317-326;

[2] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе, т. I. СПб., 1871, стр. 389-390

[3] Bakıxanov A.Gülüstani-İrəm.Bakı, Minarə-2000 (224 s.)

[4] Qarabağnamələr. Birinci, ikinci, üçüncü kitablar. Bakı, Şərq-Qərb-2006

[5] Петрущевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв., Л., 1949

sosial–iqtisadi vəziyyətin təhlilinə[1], Azərbaycan–Rusiya münasibətlərinə[2], bəhs olunan dövrdə Azərbaycanda kənd təsərrüfatının ümumi vəziyyətinə[3], aqrar münasibətlərə, kəndli institutlarına, feodal asılılıq formalarına və kəndli hərəkatına, hərbi-siyasi hadisələrə və siyasi sistemə[4] və başqa problemlərə həsr edilmiş əsərlərdən istifadə edilmişdir. V.Umudlunun "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)" monoqrafiyasında dövürun tarixi mənzərəsi bolşevik konsepsiyalarından fərqli olaraq mövcud mənbələrin təhlili əsasında tədqiq olunmuşdur. [5] M.M.Gülmalıyevin "XVIII əsrin son rübü–XIX əsrin I yarısında Azərbaycan kəndinin sosial–iqtisadi strukturu" adlı monoqrafiyası da öyrənilən problemin bu və ya digər tərəflərini əhatə edir.[6] Müəllif adı çəkilən əsərdə geniş arxiv fondlarından, ilkin mənbələrdən əldə edilmiş sənəd və materiallardan, həmçinin tarixi ədəbiyyatın ümumiləşdirilməsi əsasında Azərbaycanda aqrar münasibətlər və kənd təsərrüfatının vəziyyəti, feodal sinifləri və onların qarşılıqlı münasibətləri, feodal asılılığının xüsusiyyətləri, çarizmin Cənubi Qafqazda aqrar siyasəti və onun mərhələləri, kəndlilərin vergi və mükəlləfiyyətləri, habelə digər məsələləri hərtərəfli işıqlandırmışdır. F.Əliyevin ayrı-ayrı tədqiqatlarında[7] İrəvan və Naxçıvan xanlıqları yaranması, adı çəkilən xanlıqların ictimai-iqtisadi vəziyyəti, eləcə də siyasi tarixi diqqət mərkəzində dayanmışdır. Uzun və gərgin əməyin

---

[1] Левиатов В.Н. Очерки из истории Азербайджана в 18-го веке. Баку, 1948; Hüseynov Y. Qarabağnamələr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı, Elm, 2007 (216 s.)

[2] Абдуллаев Г.Б. Азербайджан в 18-го в. и взаимоотношения его Россией. Баку, из-во Академии наук Аз. ССР, 1965 (621 с.); Абдуллаев Г.Б. Из истории северо-восточного Азербайджана в 60-80-х гг. в 18-го в. Баку, из-во Академии наук Аз. ССР, 1958, 211 стр; Əsədov F.S. Talış xanlığı. Bakı, Çənlibel nəşriyyatı, 1998 (152 s.); İsmayıl M., Bağırova M.Şəki xanlığı. Bakı, Az.Döv.Nəşr.1997 (76 s.)

[3] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в 19-го в. Баку, 1960

[4] Ибрагимбейли Х.М.Россия и Азербайджан в первой трети 19-го в. М.,1969;

[5] Umudlu V. "Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)". Bakı, Elm, 2004 (183 s.)

[6] Gülmalıyev M.M.XVIII əsrin son rübü–XIX əsrin I yarısında Azərbaycan kəndinin sosial–iqtisadi strukturu. Bakı, Elm, 1989 (280 s.)

[7] Əliyev F.M.Şimali Azərbaycan şəhərləri. Bakı, Az.SSR E.A, 1960, 136 s; Yenə onun: İrəvan xanlığı. Bakı, Şərq-Qərb-2007 (144 s.); Yenə onun: Naxçıvan xanlığı.Bakı, Az.Dövlət Nəşr., 1996 (106 s.)

bəhrəsi olan bu tədqiqatlarda F.Əliyev dövrün mənzərəsini zəngin arxiv və dövrün mənbələri əsasında işıqlandırmış, Azərbaycan uğrunda İran və Rusiyanın yürütdüyü siyasəti, tarixi Azərbaycan torpaqlarına köçürülən ermənilərin dövlət yaratma planlarını açıqlaya bilmişdir. 1991–ci ildə Azərbaycanın növbəti dəfə müstəqilliyə qovuşması bir çox məsələlərlə yanaşı, qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan tarixinin yenidən işlənməsini vacib zərurət kimi ortaya çıxardı. Belə ki, uzun müddət sovetlər dönəmində bəhs olunan problemlə bağlı yanlış konsepsiyalara qarşı gənc tədqiqatçılar obyektiv baxışları ortaya qoymağa müvəffəq oldular. Bir çox müstəqillik dövrü tədqiqatçılarının çap etdirdikləri monoqrafiyalarda Azərbaycanın xanlıqlar dövrü və XIX əsr tarixinin bir sıra mühüm məsələləri diqqət mərkəzinə çəkilmişdir. Belə ki, M.Əliyev "Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı", R.Hüseynli "Azərbaycan ruhaniliyinin tarixi", G.Nəcəfli "Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri", S.İbişov "Quba xanlığının əhalisi"[1] kimi çox mühüm tarixi və demoqrafik promlemləri müstəqil düşüncə tərzi ilə araşdırmış, bir sıra elmi nəticələr əldə etmişlər. M.Abdullayevin "Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40–ci illərinə qədər)"[2] adlı monoqrafiyasında tədqiq olunan problemlə bağlı bəzi məsələlər araşdırılır. Müəllifin ən böyük uğurlarından biri rus işğalları yolunda ən böyük maneə olan ali müsəlman silkinin zərərsizləşdirilməsi, onların torpaq, siyasi və silki hüquqlarının məhdudlaşdırılması sahəsində hökumət orqanlarının həyata keçirdiyi siyasətin mahiyyəti və istiqamətləri tarixşünaslığımızda ilk dəfə olaraq yeni arxiv sənədləri əsasında yazılmasıdır. Burada eyni zamanda ali müsəlman silkinin statusu ilə bağlı hazırlanmış layihələr də nəzərdən keçirilmiş, Rus hökumətinin kəndli məsələsi üzrə həyata keçirdiyi maliyyə-vergi siyasəti də təhlil olunmuşdur. Prof. İ. Hüseynovanın "История народов Кавказа"[3] adlı monoqrafiyasında da öyrənilən problemlə bağlı Qafqazdakı bəzi nüanslara aydınlıq gətirilmişdir. İstedadlı Azərbaycan tədqiqatçısı, Azərbaycan tarixinə

---

[1] Əliyev M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Bakı, Adiloğlu, 2001 (316 s.); R.Hüseynli. Azərbaycan ruhaniliyi. Bakı, Kür, 2002(266 s.); Nəcəfli G.Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı), Bakı, 2002; İbişov S.Quba xanlığının əhalisi. Bakı, 2004

[2] Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər.Bakı, Adiloğlu, 2005 (232 s.)

[3] Гусейнова И. История народов Кавказа. Баку, Təhsil, 2006 (603 s.)

dair sanballı araşdırmaların müəllifi K.K.Şükürovun tədqiqatlarında [1] Azərbaycanın əhali problemi, çar Rusiyası ilə İran arasında Azərbaycan torpaqlarının bölüşdürülməsini başa çatdıran 1828–ci il Türkmənçay müqaviləsindən bəhs olunur. Müəllifin tədqiqatlarında aydın olur ki, Türkmənçay müqaviləsindən ən çox qazanan ermənilər olmuşdur. Onlar Rusiyanın işğal etdiyi Azərbaycanın Qarabağ, Naxçıvan, İrəvan və b. xanlıqları ərazisinə köçürülmüş, bundan istifadə edərək ərazi iddialarına, azərbaycanlılara qarşı soyqırıma başlamışlar. Göründüy kimi, müəllif Azərbaycan xanlıqlarını xüsusi tədqiqat obyekti kimi seçməsə də, Türkmənçay müqaviləsindən sonra çar Rusiyası tərəfindən bölgəyə ermənilərin köçürülməsi məsələsinə toxunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun gərgin əməyinin bəhrəsi olan tədqiqat işində[2] Azərbaycan dövlətlərindən birindən İrəvan xanlığından bəhs olunur. Təkzibolunmaz ilkin mənbələr əsasında bu dövlətin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu sübuta yetirilir. Monoqrafiyada İrəvan xanlığı əhalisinin etnik tərkibi ilkin mənbələr əsasında araşdırılmış və erməni müəlliflərinin xanlığın xristian əhalisi barədə uydurma fikirləri əhalinin əksəriyyətinin guya ermənilərdən ibarət olması ideyası ifşa olunmuşdur. Bundan əlavə, XIX əsrin əvvəllərində İrəvan xanlığının yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizəsi, böyük çətinliklə Rusiya imperiyası tərəfindən işğal edilməsi, ən əsası isə işğal olunmuşİrəvan xanlığı ərazisinə ermənilərin İrandan və Osmanlı imperiyasından kütləvi şəkildə köçürülməsi faktlarının ilkin mənbələr əsasında işıqlandırılması tədqiq olunan problemin elmi bazasını bir qədər də gücləndirmişdir. Mövzunun tarixşünaslıq bəhsinin təhlilindən göründüyü kimi mövzu indiyədək vətən tarixşünaslığında konkret tədqiqat obyekti olmasa da, onun bir sıra aspektləri müxtəlif müəlliflər tərəfindən işıqlandırılmış, dəyərli məlumatlar vermişlər.[3]

**Dissertasiyanın mənbə bazası.** Tədqiqat işi yazılarkən müxtəlif mənbələrdən istifadə edilmişdir. Dissertasiya işinin əsas mənbə bazasını çox həcmliliyi və elmi əhəmiyyəti ilə fərqlənən **Qafqaz Arxeoqrafiya**

---

[1] Şükürov K.K. Azərbaycan əhalisi:öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək).Bakı, Elm, 2004, 974 s; Yenə onun: Türkmənçay-1828. Tarixi xronika.Bakı, Çaşıoğlu, 2006, 188 s.

[2] İrəvan xanlığı.Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi.Bakı, Azərbaycan, 2010 (620 s)

3 Гусейнова И. Историческая энсиклопедия Кавказа. Баку 2010, Çaşıoğlu,(950 s)

**Komissiyasının topladığı 12 cildlik sənədlər** toplusu təşkil edir. Məşhur Qafqazşünas alim A.Berjenin redaktəsi ilə hazırlanaraq 1866-cı ildən Tiflisdə çap olunan bu toplularda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın Baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriptləri və s.) yanaşı, statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir-çıxar sənədləri və s.) da mövcuddur. Qafqaz Arxeoqrafiya Komissiyasının aktlarında mövcud olan sənədlərə əsasən, Azərbaycan xanlıqlarının XVIII əsrin sonu–XIX əsrin əvvəlləri tarixinə dair məlumatları müqayisə etmək, dəqiqləşdirmək, bir sözlə, tənqidi süzgəcdən keçirmək mümkün olmuşdur. Azərbaycan xanlarının Rusiyanın Qafqazdakı Ali Baş komandanlarına və başqalarına yazdıqları məktubların da daxil olduğu həmin sənədlərdə, eləcə də Azərbaycan xanlıqlarının sosial-iqtisadi tarixinə, qeyri-müsəlmanların tarixi Azərbaycan torpaqlarında yerləşdirilməsi, çar hökuməti tərəfindən yerli azərbaycanlılara qarşı həyata keçirilən siyasi, dini, milli bərabərsizlik və s. məsələlərlə bağlı suallara cavab tapmaq mümkündür. Lakin bu toplunun böyük elmi əhəmiyyəti ilə yanaşı, onun tendensiyalı səciyyəsini də qeyd etmək lazımdır. Həmin sənədlər böyük elmi əhəmiyyətə malik olması ilə fərqlənsə də, yanlış fikirlərdən, qeyri–dəqiq məlumatlardan da xali deyildir. Bu da başadüşüləndir. Dövrün tələbinə uyğun olaraq tərtib olunan sənədlərdə[1] XVIII əsrin sonu-XIX əsrin I yarısında Azərbaycanda mövcud sosial–iqtisadi və siyasi vəziyyətə dair çoxlu məlumatlar yer alsa da, bu məlumatları toplayan dövlət məmurları çarizmin müstəmləkəçilik xəttinə haqq qazandırmaq, yerli xalqın tarixi inkişafında bütün mütərəqqi cəhətləri inkar etmək niyyəti hiss olunur. Azərbaycan xanlıqlarının xarici siyasəti kölgə altına alınır, Azərbaycan xanlarının müstəqilliyi şübhə ilə qarşılanır, İrana meylli siyasət yürütdükləri qeyd edilir. Beləliklə də, çar Rusiyasının bölgədəki işğalçılıq siyasəti hər vasitə ilə ört–basdır edilir. Tədqiqat işinin yazılmasında Azərbaycan və Gürcüstan Respublikaları arxivlərindən toplanmış materiallardan da istifadə edilmişdir. Onu da qeyd edək ki, XVIII əsrin sonu–XIX əsrin I yarısına aid Cənubi Qafqaz üzrə qiymətli materiallar Gürcüstan Respublikasının paytaxtı Tbilisidə yerləşən Gürcüstan Respublikası Dövlət Tarix Arxivində toplanmışdır. Xüsusilə Zaqazqaziya diyarının baş hakiminin dəftərxanası (F.2) mövzunun əsas problemlərinin araşdırılması üçün əvəzedilməzdir. Bu fondda Azərbaycanda aqrar siyasətin başlıca xüsusiyyəti, kənd təsərrüfatının vəziyyəti, köçürmə tədbirləri və s. haqqında qiymətli məlumatlar vardır. Şimali Azərbaycanın çar Rusiyası

---

[1] Акты, собранные Кавказской Археографической комиссией (АКАК). Т. 1-12, под ред. А.Берже. Тифлис, 1866-1904.

tərəfindən işğalı ərəfəsi, işğal dövrü və sonrakı illərdə sosial-iqtisadi həyatın ən mühüm məsələləri Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (AR DTA) Ali Gürcüstan hökumətinin xəzinə ekspedisiyası (F.24) və Müsəlman əyalətlərinin və Talış xanlığının hakiminin dəftərxanası (F.130) fondlarında toplanan sənədlərdən istifadə olunmuşdur. Azərbaycan torpaqları Rusiya imperiyası və Qacarlar İranı tərəfindən bölüşdürüldükdən sonra tərtib olunmuş həmin materiallar xanlıqlar dövrünün hadisələrini tam əks etdirməsə də, dövr baxımından yaxın olduğundan həmin sənədlər əsasında boşluğu aradan qaldırmaq mümkün olmuşdur. Tədqiqat işi yazılarkən digər bir mənbə 1828–1836–cı illərdə Cənubi Qafqazın iqtisadi həyatının öyrənilməsinin nəticəsi kimi Sankt–Peterburqda Lekqobıtovun redaktəsi ilə çap edilən dörd cildlik "Rusiyanın Qafqazdakı ərazilərin statistik, etnoqarfik, topoqrafik və maliyyə münasibətlərinin icamlı"[1] toplusundan da istifadə edilmişdir. Ilk növbədə Azərbaycanın bir müstəmləkə kimi metropoliya üçün əhəmiyyəti məsələsinin, iqtisadi sərvətlərin mənimsənilməsi yollarının öyrənilməsi baxımından əsərin ikinci və üçüncü cildlərlərindən bəzi məlumatları əldə etmək mümkündür. Dissertasiya işi yazılarkən çap olunmuş mənbələr sırasında, həmçinin Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə əlaqələrini işıqlandıran, Ankarada nəşr olunmuş ikicildlik sənədlər toplusunu[2] aid etməmək mümkün deyil. Burada toplanan sənədlər, əsasən müasir dövrdə Türkiyə dövlət arxivində saxlanılan "Mühimmə dəftərləri", "Xətti–humayun dəftərləri", "Topqapı Saray Arxivi"ndəki qiymətli mənbələrə əsasən hazırlanmışdır. Beləliklə, istifadə edilmiş bütün mənbələr mövzunun müxtəlif aspektlərini özündə əks etdirərək bir–birini tamamlayır. Göstərilən mənbələrin kompleks şəkildə və tənqidi yanaşma əsasında tədqiqata cəlb edilməsi "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün mənbə kimi" probleminin obyektiv tədqiq edilməsinə kömək etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Azərbaycanın dövlətçilik tarixində xüsusi əhəmiyyət daşıyan Azərbaycan xanlıqlarının sosial-iqtisadi, siyasi həyatının, qonşu dövlətlərlə münasibətlərinin, I–II Rusiya–İran müharibələrinin Azərbaycan üçün nəticələrinin, yerli əhaliyə qarşı həyata keçirilən dini, milli, siyasi

[1] ОРВЗ (Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях) (Составил Лекгобытов), ч. 1-4, СПб., 1836.

[2] Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri, I c.,Ankara, 1992; II c., Ankara, 1993.

bərabərsizliyin Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları əsasında nə dərəcədə və hansı aspektlərdən işıqlandırılmasının təhlil edilməsi, eləcə də həmin mənbənin Azərbaycan tarixinin öyrənilməsində əhəmiyyətinin müəyyən edilməsidir. Bu məqsədin Azərbaycan tarixşünaslığında ilk dəfə gerçəkləşdirilməsi üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

– XVIII əsrin II yarısı XIX əsrin I rübündə Şimali və Cənubi Azərbaycanda kənd təsərrüfatının vəziyyətinin öyrənilməsinin qısa xülasəsini vermək, Azərbaycanda kənd təsərrüfatının zəngin ənənələrə malik olmasını mənbələrlə sübut etmək;

– Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri və dövrün digər mənbələrindən əldə olunan məlumatlar əsasında ölkədə vahid siyasi hakimiyyətin yoxluğu üzündən vahid torpaq fondunun olmadığı bir şəraitdə dövlət torpaqları üzərində ali mülkiyyətçilik hüququnun bütün ölkənin əvəzinə ayrı–ayrı xanlıqların hüdudları çərçivəsində məhdudlaşdığını, xanlıqların iqtisadiyyatında əsas yeri torpaq üzərində mülkiyyətin təşkil etdiyini göstərmək;

– XVIII əsrin II yarısında Şimali və Azərbaycan xanlıqlarında sosial–silki quruluşda özünəməxsus dəyişikliklərin meydana gəldiyini müəyyənləşdirmək, mövcud olan vergi və mükəlləfiyyətlərin miqdarını müəyyənləşdirmək;

– XVIII əsrin II yarısından etibarən Qafqaz regionunda mənafeləri toqquşan qonşu dövlətlərin planlarını açıb göstərmək, Rusiya imperiyasının Cənubi Qafqazı işğal etmək, xüsusilə də Azərbaycan xanlıqlarını ələ keçirmək və Osmanlı dövlətinin burada nüfuzunun güclənməsinə yol verməmək üçün xristian dini amilindən məharətlə istifadə etmək siyasətini təhlil etmək.

Tədqiqatın əsas predmeti XVIII əsrin II yarısı XIX əsrin I rübündə Şimali Azərbaycan xanlıqları ilə bağlı mənbələrin, müxtəlif məlumatların təhlil edilməsidir.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiyanın metodoloji əsasını obyektivlik və tarixilik prinsipləri, bütün mənbə və məlumatların kompleks şəkildə və tənqidi təhlil əsasında müqayisəli təhlil yolu ilə araşdırılmasına söykənən obyektiv tarixi tədqiqat metodu təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda elmi yenilik elementləri aşagıdakılardan ibarətdir:

– Tədqiqat işi tarixşünaslığımızda Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri əsasında Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı məsələsini öyrənən ilk araşdırmadır;

– Dissertasiyada Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri təhlil edilərək xanlıqlar dövründə Azərbaycanın sosial–iqtisadi inkişaf səviyyəsi, xüsusilə aqrar quruluşun ümumi səciyyəsi tarixşünaslıqda ilk dəfə verilmişdir;

– Aktlar əsasında çar hökumətinin işğal prosesi və işğaldan sonra yerli Azərbaycan türklərinə qarşı həyata keçirdiyi milli, dini, siyasi bərabərsizlik kimi tədbirlərinə toxunulmuş, çarizmin Azərbaycanın işğalı prosesində xristian amilindən məharətlə istifadə etməsinin nəticə və xüsusiyyətləri təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqat işində toplanmış çoxsaylı arxiv sənədləri, statistik məlumatlar, elmi ədəbiyyat və dövrü mətbuat materialları, əldə edilmiş nəticələr və irəli sürülmüş təkliflər, problemə yeni yanaşma prizmasından böyük əhəmiyyət daşıyır. Bunula yanaşı, dissertant problemin bütün tərəflərinin tam araşdırıldığını iddia etmir. Tədqiq olunan dissertasiya işi Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı prosesi ilə bağlı ümumiləşdirilmiş əsərlərin yazılmasında, dərs vəsaitlərinin tərtib olunmasında, mühazirələrin və xüsusi nəşrlərin hazırlanmasında, tələbələrin kurs bə buraxılış, magistrantların dissertasiya işlərinin yazılmasında istifadə edilə bilər. Dissertasiya işi yazılarkən təkcə problemin öyrənilməsi və faktik materialın toplanılması ilə kifayətlənilməmiş, eyni zamanda həmin faktların və sənədlərin təhlil edilməsinə, onların arasındakı əlaqələri və ziddiyyətlərin aşkara çıxarılmasına, hadisələrin əsl mahiyyətinin açılmasına çalışılmışdır.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmununu əks etdirən müddəalar müəllifin çap olunmuş məqalələrində, müxtəlif beynəlxalq və respublika əhəmiyyətli konfranslardakı çıxış və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya girişdən, 3 fəsildən, 2 yarım fəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdirş

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və

vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir. Dissertasiyanın "**Şimali Azərbaycan xanlıqlarının ictimai-iqtisadi və siyasi həyatı Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində**" adlanan birinci fəsli iki yarım fəsildən ibarətdir. **"Kənd təsərrüfatının vəziyyəti"** adlanan birinci yarım fəsildə Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri əsasında Şimali Azərbaycanda ayrı-ayrı xanlıqlar üzrə kənd təsərrüfatının vəziyyəti təhlil edilir. Həmçinin "**Torpaq sahibliyi**"də bu yarımfəsildə Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri və dövrün digər mənbələrindən əldə olunan məlumatlar əsasında ölkədə mövcud olan torpaq mülkiyyəti formaları öyrənilmişdir. Xanlıqların iqtisadiyyatında əsas yeri torpaq üzərində mülkiyyət təşkil edirdi. Sənədlərdən məlum olur ki, XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarında aşağıdakı torpaq mülkiyyəti mövcud idi:

**Divani–dövlət torpaqları.** Qeyd etmək lazımdır ki, XVIII əsrin II yarısında bu torpaqlar əvvəlirdə olduğu kimi, bütövlükdə dövlət xəzinəsinin əlində deyildi. Bu dövrdə dövlət torpaqlarının xan və xan ailəsi üzvlərinin torpaq sahələri ilə qarışması və divan torpaqlarının hesabına xüsusiyyətçi torpaqların artması nəzərə çarpırdı. Bu torpaq mülkiyyəti xan və onun ailə üzvlərinin varlanması üçün əsas mənbələrdən birinə çevrilmişdi.[1]

**Mülk torpaqları.** İri bəylərə, mülkədarlara məxsus torpaq sahələri. Mülk torpaqları şəxsi mülkiyyət kimi satıla və ya başqa şəxsə bağışlana bilərdi. Bu torpaq sahələri hüquqi cəhətdən, adətən, nəsildən-nəslə keçirdi. Mülk torpaq mülkiyyəti müxtəlif olmuşdur. Onun ən geniş yayılmış formalarından biri mülkü-xalisə olmuşdur. Mülklərin hamısının xalisə hüququ yox idi.

**Tiyul**. Azərbaycan dilində "kiməsə çatan əşya", "gəlir verən əşya", "gəlir" mənasındadır. Türk ləhcələri lüğətinin ilk tərtibatçılarından biri V.V.Radlovun təbirincə isə tiyul "ömürlük istifadə üçün bağışlanmış torpaq sahəsi" deməkdir.[2]

**Vəqf torpaqları**. Dini ocaqlara, məscidlərə, pirlərə, kilsələrə aid torpaq sahələri. Azərbaycanın XVIII əsr sosial–iqtisadi quruluşundan bəhs edən M.M.Gülmalıyev yazır ki, vəqf mömünlik və savab yiyəsi olmaq istəyən şəxsin öz əmlakını məşhur adamların və idarələrin xeyrinə keçirilməsi barədə müqavilədir. Bu müqavilə ilə mülkiyyət sahibi öz mülkiyyəti üzərindəki hüququnu itirirdi, lakin vəqf sahibi də həmin mülkün mülkiyyətçisinə

---

[1]Акты, собранные Кавказской Археографической комиссией ( bundan sonra АКАК). Т.4, под ред. А.Берже. Тифлис, 1878, sənəd 412, 462-463

[2] Радлов В.В. Опыт словаря тюркских наречий, т.3. СПб,1905

çevrilmir, yalnız onun gəlirindən istifadə hüququ alırdı. "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nun 40–cı buraxılışında islam dini haqqında geniş elmi təsəvvür yaradan N.A.Karaulov yazır ki, vəqf qeyri-mənqul əmlakın, həmin əmlakdan yaxud onun gəlirindən istifadə etmək hüququ ilə müəyyən idarənin, yaxud cəmiyyətin xeyrinə verilməsidir. İdarə və cəmiyyətin vəqf üzərində mülkiyyət hüququ yoxdur, vəqf, almağın mülkiyyətidir.[1]

**Camaat torpaqları**. Bu torpaq sahələri əsasən kənd icmasına məxsus idi. İ.İ.Şopenin yazdığına görə, İrəvan xanlığında səkkiz icma var idi. Icmalara məxsus kəndlər mülk hüququ ilə həmin icmanın üzvü olan rəiyyətə məxsus idi.[2]

**Divan torpaqları**. Dövlətin gəlirinin özəyini təşkil etsə də, xanlar XVIII əsrin II yarısında həmin torpaqları "səxavətlə" bu və ya digər xidmətinə görə, xüsusilə döyüş meydanlarında fərqlənənlərə bir növ bağışlayıdılar. Belə torpaq sahələri tiyul adlanırdı. Tiyul torpağı almış şəxsin-tiyuldarın bu sahədən yalnız məhsul toplamaq hüququ vardı. Özü də tiyul daimi deyildi və nəsildən-nəslə də keçə bilərdi. Tiyuldar əldə etdiyi məhsulun müəyyən hissəsini xəzinəyə verməli idi.

**"Siniflər"** adlanan ikinci yarımfəsildə XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının yaranması nəticəsində sosial-silki quruluşda meydana gələn dəyişikliklər öyrənilir. Mənbələr əsasında göstərilir ki, əvvəllər olduğu kimi, Azərbaycan xanlıqlarında da feodallar və kəndlilər əsas sinifləri təşkil edirdi. Xan, bəy, sultan və məliklərdən, habelə torpaq sahiblərindən əlavə, feodal zümrəsinə ruhanilər, yarımköçəri tayfaların başçıları olan elbəyilər də daxil idi. Xidmət müqabilində yarımoturaq, bəzən isə oturaq kəndlilərlə birlikdə torpaq alan elbəyilər eyni zamanda torpaq sahiblərinə çevrilirdilər. Elbəyilər xan qarşısında hərbi mükəlləfiyyət daşıyırdılar.

**"Vergi və mükəlləfiyyətlər"** adlanan ikinci yarım fəsildə Şimali Azərbaycan xanlıqlarında mövcud olan vergi və mükəlləfiyyətlər təhlil olunur, vergilərin növləri müəyyənləşdirilir. Göstərilir ki, bütün vergi və mükəlləfiyyətlər xan və mülkədarların xeyrinə ödənilən torpaq və gəlir vergiləri idi. Bu vergi və mükəlləfiyyətlərdən savayı xan qoşununu, onun

---

[1] Каралулов Н.А. Основы мусульманских права // СМОМПК, 40-cı buraxılış, 1-ci şöbə, Tiflis, 1909, s.50

[2] Шопен И. И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. В Типографии Императорской Академии Наук. СПб., 1852, s.967-980

saray adamlarını və s. saxlamaq da rəiyyətin boynuna düşür və onlardan külli miqdarda vergilər toplanırdı. Bu vergilər içərisində ən ağırı və geniş yayılanı darğalıq idi. Darğalıq vergisi vergi yığanların, kəndxudaların, kovxaların xeyrinə yığılan vergi idi. Bu vergi Şəki və başqa xanlıqlarda qulluq–darğalıq, yaxud sadəcə olaraq darğalıq adlanırdı və onun həcmi toplanan malcəhətin hər manatından 7,5 qəpiyə bərabər idi. Başqa xanlıqlarda onun həcmi müxətlif idi.[1] Dissertasiyanın **"Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində"** adlanan ikinci fəslində XVIII əsrin II yarısında inkişaf etmiş Qərb dövlətlərinin, xüsusilə çar Rusiyasının Cənubi Qafqaz bölgəsinə maraqları, işğalçılıq siyasəti araşdırılır. Göstərilir ki, Rusiya imperiyası Cənubi Qafqazı işğal etmək, xüsusilə də Azərbaycan xanlıqlarını ələ keçirmək və Osmanlı dövlətinin burada nüfuzunun güclənməsinə yol verməmək üçün xristian dini amilindən, ilk növbədə gürcü çarlarından istifadə etmək siyasəti yeridirdi. Elə buna görə də gürcü çarı 1783–cü il iyulun 24–də Georgiyevsk şəhərində Rusiyanın himayəsinə keçmək haqqında saziş imzaladı. Bundan sonra Rusiyanın hakim dairələri tərəfindən Azərbaycanın bütün xanlıqlarına "xəbərdarlıq" məktubu, həmçinin formal olaraq "hədiyyələr" də göndərilərək, Azərbaycan xanlarına təklif edildi ki, II İraklini belə bir addım atdığına görə tənbeh etməsinlər və onunla dostluq əlaqəsi saxlasınlar. Göründüyü kimi, 1783–cü il Georgiyevsk traktatına əsasən Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi müəyyən dərəcədə Cənubi Qafqazın və Cənubi Azərbaycan xanlıqlarının xarici siyasətinə təsir göstərdi. Azərbaycan ərazisində mövcud olan dövlət qurumlarının-xanlıqların başçılarının əksəriyyəti Rusiyanın müstəmləkəçilik siyasətini ilk əvvəl dərk etmədən çarizmin vədlərinə inanır və sadəlövhlüklə Rusiyaya ümid bəsləyirdilər. Deyilənləri Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri də təsdiqləyir. Şəki hakimi Məhəmmədhəsən xan Rusiyaya meylini davam etdirərək carlılara və Dağıstan feodallarına yazırdı: "Mənim əzizlərim, sizin məktubunuzu aldım və məzmunu ilə tanış oldum. Rusiya rəisləri ilə sülh yaratmaq Sizin üçün də, bizim üçün də xeyirlidir. Siz onların yanına adamlarınızı göndərin və onlarla barışın, ancaq siz öz işinizdə yalnız ehtiyatlı olmağa çalışmayın, danışıqlarda sülh bağlayana qədər möhkəm olun, mən də əlimdən gələni edəcəyəm. Sizin danışıqlar və məsləhət almaq üçün xahişinizə əməl edərək 5 nəfər ən inanılmış adamlarımı göndərirəm. Rus rəisinin yanına da ən inanılmış adamım Şahverdi bəyi müqavilə bağlamağa göndərirəm və ona tapşırmışam ki, Sizin yanınıza gələndə bütün fikirlərimi

[1] АКАК, Т.6., Ч. 1., Тифлис, 1874, sənəd 1074, səh. 719–720

sizə çatdırsın”[1] Rusiya özünün Cənubi Qafqazda işğalçılıq siyasətini həyata keçirmək məqsədilə Azərbaycan xanlarını müxtəlif yollarla öz tərəfinə çəkməyə çalışırdı. İmperiya siyasətbazları yuxarıda qeyd edildiyi kimi bir tərəfdən Azərbaycan xanlarına “xəbərdarlıq” edir, hədə-qorxu gəlir, İrəvan, Xoy və Təbriz xanlarının saraylarına elçilər və hədiyyələr göndərir, digər tərəfdən isə Georgiyevsk sazişindən istifadə edərək hərbi Gürcüstan yolu vasitəsilə Cənubi Qafqazda hərbi hazırlıq işlərini daha da gücləndirirdilər. Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərindən məlum olur ki, I Aleksandr hakimiyyətə gəldikdən sonra hələ I Pyotrun zamanından başlamış Cənubi Qafqazı ələ keçirmək siyasətini bərpa etdi. 1801-ci il sentyabrın 12-də Georgiyevskdə bağlanan yeni müqaviləyə əsasən Qazax, Şəmşədil və Borçalı sultanlıqları Şərqi Gürcüstanla birlikdə Rusiyanın tərkibinə daxil edildi. I Aleksndr 24 aprel 1802-ci ildə Gürcüstanda yerləşən rus qoşunlarının baş komandanı K.F.Knorrinqə yeni təlimat göndərdi. Təlimatda Knorrinqə tapşırıq verilir ki, o, Gürcüstanda olan rus qoşunlarının sıralarını möhkəmləndirsin və hazır vəziyyətdə saxlasın. K.F.Knorrinq eyni zamanda strateji əhəmiyyətə malik olan Gəncə xanlığını işğal etməli idi[2]. Əslində isə qeyd etmək yerinə düşərdi ki, çar Rusiyasının belə sürətli plan üzrə hərəkəti bəhs olunan dövrdə Qacarlar İranının Cənubi Qafqaz bölgəsində fəallaşması, onun İngiltərə və Fransa tərəfindən dəstəklənməsi ilə izah olunmalıdır. Dissertasiyanın üçüncü fəsli **“Şimali Azərbaycan xanlıqlarının müstəqilliyinə son qoyulmasi və azərbaycanlı əhaliyə qarşı həyata keçirilən milli, dini və siyasi bərabərsizliyin bu sənədlərdə əks olunmasi”** adlanır. Bu fəsildə Şimali Azərbaycanın Rusiya tərəfindən istila edilməsinin gedişində yeni inzibati sistemin yaradılması, rus qoşunlarına müqavimət göstərən xanların hakimiyyətdən məhrum edilməsi, xanlıqlar dairə və əyalətlərə çevrilməsi təhlil olunur. Daha sonra xanların daxili idarəçilikdə hüquqları əvvəlki həcmdə saxlanılsa da, onların səlahiyyət və hakimiyyətləri xeyli dəyişikliyə məruz qalmaqla məhdudlaşdırılması təhlil olunur. Xüsusi olaraq vurğulanır ki, xanlıqların ərazisində rus hərbi qüvvələri yerləşdirilir, hakim vassaların özləri isə çar generalları siyahısına daxil edilir və Qafqazdakı hərbi məsələlər üzrə baş komandanın tapşırıqlarını yerinə yetirirdilər. Bununla belə, 20–ci illərə yaxın çarizm öz vassalarının xidmətindən imtina etməyi lazım bildi və bütün xanlıqlar ləğv edildi. Şəki

[1] AKAK, T.2.,Тифлис, 1868, sənəd 1282, s. 638

[2] Акты, собранные Кавказской Археографической комиссией Т. 1, под ред. А.Берже. Тифлис, 1866, sənəd 841

xanlığında 1819–cu ildə [1], Şirvan xanlığında 1820–ci ildə, Qarabağ xanlığında 1822–ci ildə, Lənkəran xanlığında 1826–cı ildə köhnə idarəçilik ləğv edilərək, komendantlıqlarla əvəz edildi. Bəhs olunan fəsildə daha sonra Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri əsasında Rusiya imperiyasının Cənubi Qafqazda möhkəmlənmək və özünün gələcək işğalçılıq planlarını həyata keçirməkdən ötrü Türkmənçay və Ədirnə müqavilələrinin şərtlərinə əsaslanaraq erməniləri dərhal İrandan və Osmanlı imperiyası ərazisindən kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürməyə başlaması araşdırılır. Məlumdur ki, İrəvan bölgəsində ermənilərin azlıq təşkil etməsi Rusiya imperiyasının İran və Osmanlı sərhədində bufer xristian dövləti yaratmaq siyasətinə zidd idi. Elə bu səbəbdən də Azərbaycanın Arazdan şimaldakı torpaqlarını işğal edən Rusiya imperiyası erməniləri kütləvi şəkildə “Rusiya təbəəliyində olan torpaqlar” adı altında Azərbaycanın keçmiş İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazilərində və Gürcüstanın azərbaycanlılara məxsus torpaqlarında yerləşdirdi. Azərbaycanlı əhaliyə qarşı həyata keçirilən bu mənfur siyasəti rus müəlliflərinin özləri də etiraf edirlər. Ermənilərin köçürüldüyü torpaqlar haqqında S.N.Qlinka yazır ki, bu ərazilər...yer üzünə səpələnmiş erməni tayfalarını başına toplayacaq və I Nikolayın xoşbəxt dövləti himayəsində erməni çarlığı öz şöhrəti və bütün xatirələri ilə dirçələcək...[2] 1829–1830–cu illərdə mərkəzdən Cənubi Qafqaza yoxlama aparmaq üçün göndərilmiş senatorlar qr. P.İ.Kutaysov və Y.İ.Meçnikov yazırdılar:“...müsəlman əyalətlərində rəislərin özbaşınalığından və əhalinin çəkdiyi əziyyətdən adam dəhşətə gəlir. Burada insan ləyaqəti tapdalanmış, hər cür ədalət unudulmuş, qanun yalnız əsarət aləti olmuşdur” [3] Beləliklə, məlumatlardan da göründüyü kimi, çar hökumətinin həyata keçirdiyi bu qanlı siyasət nəticəsində İrəvan xanlığında etnodemoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişdirildi, Rusiyanın əli və gücü çatan yerlərdə vəziyyətin erməni əhalisinin xeyrinə dəyişdirilməsinə cəhd göstərildi, azərbaycanlı əhalinin doğma yurd-yuvalarından didərgin salınmasının başlanğıcı qoyuldu. İşğaldan qabaq İrəvan xanlığının əhalisinin ¾-nü təşkil edən azərbaycanlıların xüsusi çəkisi artıq 1834–1835–ci illərdə 46%-ə enimişdi. 1918–1920–ci illərdə İrəvanda daşnaklar tərəfindən 100 minlərlə azərbaycanlı məhv edildi və ya öz doğma yurd-yuvalarından

---

[1] АКАК, Т.5., Тифлис, 1873, sənəd 672, sənəd 1208

[2] Qlinka S.N.Azərbaycan ermənilərin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı:Azərbaycan nəşriyyatı, 1995, s.17 (128 s)

[3] АКАК, Т.7., Тифлис, 1878, sənəd 35, sənəd 368

qovuldu. Belə məqsədyönlü deportasiya və genosid siyasətinin nəticəsidir ki, hal-hazırda Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. Dissertasiyanın **«Nəticə»** hissəsində tədqiqatda ümumiləşdirmələr aparılmış, əldə olunmuş nəticələr təhlil edilmiş və elmi araşdırmalara yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədləri Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün bir mənbə kimi. Lənkəran Dövlət Universitetinin elmi konfransının materialları (07–08 may 2010). Lənkəran 2010, səh. 164–166
2. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində. Bakı Dövlət Universitetinin XV–Respublika elmi konfransının materialları. Bakı 2011, səh. 247–249
3. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində. Azərbaycan Universitetinin ümumrespublika elmi konfransının materialları.Bakı 2011, səh 230–232
4. Car–Balakən camaatlığı və Gəncə xanlığının Rusiya tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində. Bakı Dövlət Universitetinin xəbərləri humanitar elmlər seriyası. Bakı 1/2011, səh. 202–209
5. Şamaxı xanlığının çar Rusiyası tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində. Azərbaycan Universitetinin beynəlxalq konfransının materialları. Bakı 2011, səh 461–464
6. Qarabağ xanlığının çar Rusiyası tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində. Lənkəran Dövlət Universitetinin elmi konfransının materialları. Lənkəran 2011, səh. 62–64
7. Azərbaycanın zəbt edilmiş torpaqlarında Rusiyanın işğal rejimi. Lənkəran Dövlət Universitetinin beynəlxalq konfransının materialları. Lənkəran 2011, səh. 79–80
8. Отрожение нациального, религиозного и политицеского неравенства по отношению к населению Северного Азербайджана

в документах Кавказской Археографической Комиссии. Кавказ и Мир. Международный научный журнал № 13, Тбилиси 2012, стр. 68–71
9. Отношения между Азербайджаном и Россией в документах Кавказской Археографической Комиссии. Межкультурные коммуникации. Международные научно–периодическое издание № 19, Тбилиси 2012, стр. 103–106
10. Şəki və Şamaxı xanlıqlarının çar Rusiyası tərəfindən işğalı Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində, Bakı Dövlət Universitetinin xəbərləri humanitar elmlər seriyası, Bakı, № 3, 2012, səh. 156–162
11. XVIII əsrin II yarısında və XIX əsrin əvvəllərində Şimali Azərbaycanda vəziyyət Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində, Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, Bakı, № 4, 2012, səh. 57–63
12. К вопросу о сельском хозяйстве Северного Азербайджана в документах Кавказской Археографической Комиссии, Межкультуры коммуникации, Международный научно–периодическое издание № 20, Тбилиси, 2013, стр. 182–186
13. Şimali Azərbaycanda kənd təsərrüfatının vəziyyəti Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində. Bakı Dövlət Universitetinin xəbərləri humanitar elmlər seriyası, Bakı, № 1, 2013, səh. 104–110
14. Şimali Azərbaycan xanlıqları Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində, Lənkəran Dövlət Universitetinin elmi konfransının materialları (10–11 may). Lənkəran 2012, səh. 116–119
15. Azərbaycanlı əhaliyə qarşı həyata keçirilən siyasi bərabərsizliyin Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında əks olunması. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, Bakı, № 2, 2013, səh. 431–436
16. Qarabağ xanlığının tarixi Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında, Bakı Dövlət Universitetinin xəbərləri humanitar elmlər seriyası, Bakı, № 3, 2013, səh. 108–114
17. Документы Кавказской Археографической Комиссии как первоисточник в ситуации сельского хозяйства в Северном Азербайджане, Національний педагогічный університет імені

М.П.Драгоманова, Украінскька Академія Наук, Гілея, Науковий вісник, Історичні науки, випуск 84 (№ 5), Киів 2014, стр. 218–220

18. Şimali Azərbaycan xanlıqlarında vergi və mükəlləfiyyətlərin vəziyyəti Qafqaz Arxeoqrafiya Komissiyasının Sənədlərində, Azərabaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə, Elmi–nəzəri jurnal, 2014, № 2 (46), səh. 235–240

**Дж.Ш.Кулиев**

# Документы Кавказской Археографической Комиссии для изучения первоисточник захвата Россией территории Северного Азербайджана

## Резюме

В Октябре 1991 года после принятия Конституционного Акта о независимости тема исследования истории государственности Азербайджанской Республики, которая глубоко уходит корнями в историю, важность отношений с соседними государствами, анализ истории этих взаимоотношений стал злободневной и актуальной проблемой. Среди вопросов, обязательных для исследования, нужно особо отметить Азербайджанские ханства. Как известно, вторая половина XVIII века имеет важное значение в истории Азербайджанского государства. Как известно после убийства Надир шаха Афшара в 1747 г. его империя распалась на множество мелких государств. На территории Азербайджана возникли 20 ханств, которые просуществовали до начала XIX века, раздела страны между Россией и Гаджарским Ираном. В богатой пятитысячелетней истории Азербайджанской государственной традиции особое место занимает период ханств. Несмотря на многочисленные военные конфликты между отдельными ханствами, наличие внутренних таможенных пошлин, серьезно тормозивших развитие экономики страны, несомненно, в аспекте сохранения носила прогрессивный характер. В очерке говорится о договорах 1813 г. Гюлистанском и 1828 г. Туркменчайском мирном договоре общественно – экономической, налоги и обязанности жизни Северного Азербайджана. Все эти сведения были изучены и исследованы на основе материалов Кавказской Археографической Комиссии. Таким образом, во второй половине XVIII века, создание азербайджанских ханств, их социально–экономическая жизнь, исследование и анализ отношений с соседними странами и государствами является одной из серьезних проблем, не теряюших в наши дни своей актуальности.

**J.Sh.Guliyev**

# The Documents of Caucasian Archeograpy Comission as the source of study invasion North Azerbaijan by Russian

## Summary

Since adoption of Constitutional ruling conserning independence in 1991 the study of statehood of the Azerbaijan Republic that goes back to early history, significance of relations with neighboring countries and analysis of these relations has become actual and topical issues of the day. Among actual issues for study we should distinguish the point of the Azerbaijani khanates, their social and economic life, national, religious and political aspects of the case. As it is known the 2-nd half of the 18 century has important meaning in the history of Azerbaijan state. It is known that after the murder of Nadir shakh Afshar in 1747 his impire was separated into many small states. On the territory of Azerbaijan there appeared 20 khanates which existed till the beginning of the 19 th century, before Russia and Gajars Iran divided it between themselves. The period of khanates has special place in the rich history (5 thousand years history) of Azerbaijan state tradition. In spite of the facts that there were many military conflicts between some khanates, existence of inside customs tributes seriously stopping the development of the economics of the country, no doubt it had progressive character in the aspect of the existing. In the article it is said about the negotiations Gulustan 1813 and Turkmanchay 1828, about social and economical life, tributes and regulations in North Azerbaijan. All the information was studied and seached on the basis of documents of Archaeography Comission of Caucasus. So the creation of Azerbaijan khanates in the 2 half of 18 th century, their social and economical life, research and analysis of the relations with neughbour countries and states is one of the serious problems, which don’t lose their importance nowadays. On the basis of documents and Acts of the Caucasian Early Texts Study Committee we learnt about occupation of khanates of Northern Azerbaijan by imperial Russia as a result of which khanates lost their independence, and policy of a national, religious, political inequality was implemented and was directed towards destruction of the Azerbaijani population.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**ДЖАМИЛЬ ШАМИЛЬ оглу КУЛИЕВ**

# ДОКУМЕНТЫ КАВКАЗСКОЙ АРХЕОГРАФИЧЕСКОЙ КОМИССИИ КАК ПЕРВОИСТОЧНИК ДЛЯ ИЗУЧЕНИЯ ЗАХВАТА РОССИЕЙ ТЕРРИТОРИИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА

**Специальность: 5503.02 – “Отечественная история”**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**Баку – 2014**